# MÜŞFİQ TUFANI

## O həmişə kimlərinsə yerini dar edib

**Son günlərin maraq, həm də bir az haqlı qıcıq doğuran məsələlərindən, mövzularından biri də unudulmaz Müşfiqin abidəsi ilə bağlıdır. Hətta o məsələyə dövlət başçısı da münasibət bildirib. Və mən də bir qələm adamı olaraq bu hadisələri izləyirəm. Necə deyərlər, mövzunu diqqətimdə saxlayıram. Elə bu diqqət də birdən-birə yadıma ötən ilin ilk günlərində aldığım bir məktubu saldı. Necə deyərlər, söz sözü çəkdiyi kimi, məqam da, hadisə də bir-birini çəkdi. Və mən nə vaxtdan bəri yazı masamın üzərində saxladığım həmin o böyük konverti təkrar açdım. Bu məktub mənə Xızıdan gəlmişdi. Onun müəllifi də çox dəyərli qələm adamı, çox tutumlu söz sahibi olan və yaradıcılığına xüsusi diqqət göstərdiyim şair Ağasəfaya aid idi**

Bəli, mən Ağasəfa müəllimin yaradıcılığı ilə hələ ötən ilin 80-ci illərindən tanışam. Həm dövrü mətbuatda, həm də əldə etdiyim kitablarında onun sözə yanaşması, sözü cilalaması həmişə məndə maraq yaradıb. Və etiraf edim ki, bu günə qədər bir dəfə də olsun onunla üz-üzə gəlməmişəm. Sadəcə, sözünü tanımışam, sözün işığında da özünü görmüşəm. Hətta yaxın dostlarım Bəxtiyar Qaraca və Qəşəm İsabəyli dəfələrlə bu ağsaqqal qələm adamının həyatından danışdıqları maraqlı söhbətlərlə onu mənə bir az da yaxınlaşdırıblar, bir az da doğmalaşdırılar. Ürəyimdən nə vaxtsa Xızıya qonaq getmək də keçib. Hələ nəsib olmayıb. Amma..

Amma kitablarını yenə oxuyuram. Özü də bu kitabları əldə etməkdə mənə dostlarım, xüsusilə naşir şair Qəşəm İsabəyli daha çox yardım edir. Və mən də təbii ki, oxuduğum hər yeni kitabla bağlı içimdən gəlib keçənləri "Ədalət"in oxucuları ilə də bölüşürəm. Elə ötən yazılarımın birində də dəyərli ustad, qələm adamı Ağasəfa müəllimin özünəməxsus bir üslubda yazdığı nəsr kitabı ilə bağlı fikirlərimi oxucularla bölüşmüşdüm. Bundan bir xeyli sonra ustaddan içərisində kitabları olan bir məktub aldım. Bax, o məktub Xızıdan gəldiyinə görə, məhz Müşfiq də Xızıda doğulduğu üçün özümdən asılı olmadan necə deyərlər, qəflətən həmin məktubu xatırladım

Bəli, o kitablardan birinin adı "Müşfiq tufanı" adlanır. Az qala ovuc içi boyda olan bir kitabdı. Üz qabığında da Müşfiqin represiya zamanı çəkilmiş fotosu və həmin fotonun üzərində də 1109 rəqəmi. Bütün bunların nə demək olduğunu zənnimcə oxucuya izah etmək lazım deyil. Çünki az-çox tariximizi, ədəbiyyatımızı bilənlər represiyanın və həmin rəqəmin nə demək olduğunu bilir. Mən isə

"Müşfiq tufanı"nı oxuyuram. Bu ovuc içi boyda kitab Müşfiqin ölməz xatirəsinə həsr olunmuş şeirlər və poema toplusudu. İlk misrasından başlayıb son misrasına qədər birnəfəsə oxuduğum 41 səhifəlik kitabın hər sözünün, hər misrasının içərisindən Müşfiq baxırdı. Və mənə elə gəlirdi ki, Müşfiq həmin an məni də görür - onun barəsində yazılanları oxuyanı!.. Mən Ağasəfa müəllimin "Müşfiq tufanı"nın ilk bəndinə diqqət yetirirəm.

*Sən dalğalı bir ümmansan,*
*Mənsə qətrəyəm*
*Kiçikdən kiçik.*
*Sənin şeir sarayının qarşısında*
*Nədir qurduğun?*
*Çör-çöpdən evcik*

Bəli, bu təkcə etiraf deyil. Bu həm də Müşfiqi təqdim etməkdi. Sadə, səmimi, həm də ciddi bir şəkildə. Necə deyərlər, olduğu kimi. Bunun ardınca isə Ağasəfa müəllim yazır:

***Üfüqlər solanda, Günəş batanda***
***Sakit küçələrlə getdikcə getdim.***
***Bir yol ayrıcına gəlib çatanda***
***Bir ürək oxşayan nəğmə eşitdim:***
***"Ah bu uzun sevda yolu***
***Vurulurmu başa, könül?***
***Nişan aldım kaman çəkdim***
***Dəydi oxum daşa könül."***

Məncə Ağasəfa müəllimin çox ustalıqla öz şeirinə bir körpü kimi, bir bağlantı vasitəsi kimi Müşfiqdən gətirdiyi bu iqtibas artıq sözün nədən getdiyini və bunun nədən ibarət olduğunu nişan verir. Və bunun ardınca oxuduğum şeirlərin elə bir nöqtəsinə gəlib çatıram ki, həmin o nöqtə günümüzün olayı ilə bağlıdı. Hətta şeirin adı da belədi:

***MÜŞFİQİNİ ABİDƏSİ ÖNÜNDƏ***

***Ağasəfa müəllim yazır:***

*Ay yoldan ötüşən, bu qarlı qışda,*
*Gəl, Müşfiq şeirinin odunda qızın.*
*Ürək atəşiylə bir parça daşda*
*Bir aləm yaradıb sənin el qızın.*

*Sənətin istisi, odu tükənməz*
*Qoy əssin bu külək, qoy yağsın bu qar*
*Soyuqdan, şaxtadan qorxmaz, çəkinməz*
*Müşfiqi ürəkdən sevən adamlar.*



*Zərifdi, sənətkar əlindən çıxıb*
*Kövrəkdi isidir daşın nəfəsi.*
*Sanki şeir deyir dağlara baxıb*
*Dədə Füzulinin şair nəvəsi.*

Bu şeir 1972-ci ilin yanvar ayının 15-də yazılıb. Və mən düşünürəm ki, həmin o zamandan bu günə qədər, daha doğrusu, Müşfiqin abidəsi uçurulana qədər təkcə Ağasəfa müəllim yox, içində söz işığı, ədəbiyyat qığılcımı, Müşfiq yanğısı, Müşfiq pıçıltıları olan hər kəs o abidənin yanından keçəndə bir anlıq da olsa ayaq saxlayır. Və o bir an ərzində nələri düşünüb bunu demirəm Amma o bir anda nəfəs dərib, dincəlibdi! Bax, bu idi Müşfiq abidəsinin bir xidməti də. Üstəlik, o həm də Müşfiq idi! "Yenə o bağ olaydı" deyən Müşfiq! "Oxuma tar" deyən Müşfiq!.. Mən əlimdəki ovuc içi boyda kitabın bir səhifəsini da açıram. Burdakı şeirin adına fikir verirəm.

***- MÜŞFİQ ÖLMƏYİB Kİ***

*Müşfiqin ürəyi qara qəfəsdə*
*Müşfiqin köksündə qapqara güllər.*
*Dodağından uçan sonuncu söz də*
*Yaralı quş kimi dolaşır hələ.*

*Bu şəkilə baxanlar min dərdi anlar,*
*Müşfiqin qəlbini al qan aparar.*
*Nə dəhşət qurubsa qriqoryanlar*
*Müşfiqin gözləri tufan qoparır.*

*Yuxumda görürəm bağırqan onu,*
*Tükənmir qəzəbim, bitmir savaşım.*
*Böhtan yarasıdı ağrıdan onu,*
*Ağrın mənə gəlsin, Müşfiq qardaşım!*

Zənnimcə, şairin bu sevgiylə, bu yanğıyla yanaşmasının özü də bir poeziyadır sözə bir sitaişdi sözə bir tapınmadı Və mənim indi söylədiklərimlə içimdən gələn fikirləri səsləndirməyim də öncə baş verən olaya, Müşfiqin ruhuna, həm də Müşfiqin böyüklüyünə ustad şairimizin ünvanladığı misralara bir isti, səmimi yanaşmadır. Bu şeirləri iç dünyama köçürməkdi, yaddaşıma yazmaqdı. Və inanın ki, kitabdakı "Qanlı imza" lirik poemasının özü də mənim dediklərimə bir sübutdu. Və mən də Ağasəfa müəllimin adıma göndərdiyi kitablardan birinə, məhz "Müşfiq tufanı"na müraciət etməyim də həm narahat etdiyimiz Müşfiq ruhuna bir ehtiramdı, bir xeyirxahlıqdı, həm də Müşfiqin ölümsüzlüyünə inancımın təkrar dilə gətirilməsidi. Və nəhayət

Bəli, biz bəzən atdığımız addımı düşünmür, dediyimiz sözün çəkisini, yozumunu hesablamırıq. Və sonda da özümüz-özümüzə zərbə vurmuş oluruq, ürək ağrısı yaşatmış oluruq. Düzdü, yel qayadan heç nə aparmır. Amma ürək ağrıdır. Bax, bütün bunlardan sonra mən fikirlərimi yenə Ağasəfa müəllimin misraları ilə bitirirəm.

***Bura Müşfiq ocağı,***
***Bura - görüş yerimiz.***
***Bura - ana qucağı,***
***Ziyarətgah qucağı,***
***Gediş-gəliş yerimiz.***
***Burda - Müşfiq əbədi***
***Bura - şəhid məbədi,***
***Bura - Günəş yerimiz.***

Hə, mənə elə gəlir ki, Müşfiqin səsi qulağımda indi də səslənir və deyir ki:

***Sən (siz - Ə.M.) Müşfiqin yanında***
***Qal (qalın) sənə qurban***

Kim necə düşünür düşünsün, Müşfiq bu xalqın qan yaddaşında, tarixində, ədəbiyyatında və əbədiliyində qalacaq.

**Əbülfət MƏDƏTOĞLU**

ədalət.-2017.-2 mart.-S.3.